# Qarabağın bərpası iqtisadiyyatın artım tempini daha da sürətləndirəcək

***İşğaldan azad edilən rayonlarımızda bərpa, yenidənqurma işlərinin aparılması və iqtisadiyyatın formalaşması Azərbaycanda iqtisadi artım tempini daha da sürətləndirəcək.***

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olarkən dövlətimizin başçısı tərəfindən "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin və yarımstansiyaların açılışı ilə yanaşı, şəhərdə yeni təməlqoymalar həyata keçirilib. Ağdamın təsdiq olunmuş baş planına uyğun olaraq şəhərin mərhələli şəkildə tikintisi davam etdirilir. Baş plan və aparılan işlər göstərir ki, Ağdam bərpadan sonra regionun sənaye mərkəzinə çevriləcək.

İşğaldan əvvəl bu rayonda istehsal edilən məhsullar keçmiş SSRİ-də xüsusilə seçilib. Məsələn, şərab məhsulları həmin coğrafi ərazidə müqayisəli üstünlüyə malik idi. Ağdamda yeni yaradılacaq sənaye parkında 110 milyon manatlıq sərmayə qoyuluşu nəzərdə tutulub ki, bu, 333 iş yeri və 33 sahibkarın prosesə cəlb olunması deməkdir. Dövlət tərəfindən infrastruktur formalaşdıqdan sonra yalnız sənaye parkında deyil, digər istiqamətlərdə də investisiyaların cəlb edilməsi nəzərdə tutulur.

Ağdam azsaylı rayonlardandır ki, torpaqlarının 92 faizdən çoxu məhsuldardır. Bu da aqrar sektorun



inkişafına geniş imkanlar yaradır. Rayonda kənd təsərrüfatı və sənayenin, iqtisadiyyatın digər sektorlarının inkişaf potensialı yüksəkdir. Ağdama yerli sərmayə ilə yanaşı, xarici investisiyanın da cəlb edilməsi proqnozlaşdırılır. Bu baxımdan yalnız kənd təsərrüfatı məhsulları deyil, sənaye məhsullarının istehsal edilməsi, onun bir hissəsinin xaricə ixracı nəzərdə tutulur.

Ağdam, eyni zamanda, böyük turizm potensialına malikdir. Belə ki, rayonun təbiəti və tarixinin turist cəlb etmək baxımından üstünlüyü var. Burada xüsusilə yay turizm imkanları genişdir.

Rayonda istehsal olunan məhsulların bir qismi "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə ixrac olunacaq. Bu da rayonun qeyri-neft sektorunda ixraca xüsusi dəstəyindən xəbər verir.

İlkin proqnozlara görə, işğaldan azad edilən ərazilərimiz aqrar sektorda əlavə 10 faizə yaxın dəyər yaradacaq. Bu da Azərbaycan iqtisadiyyatının artım tempini daha da sürətləndirəcək.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .-2022.- 17 fevral.- S.3.